**“Azərbaycan Hava  Yolları”**

**«01» aprel   2020-ci  il.**

**"Azərbaycan Hava yolları" aviaşirkətinin biletlərinə tətbiq olunan qaytarılma/dəyişdirilmə qaydaları siyasətinin  tənzimlənməsi**

01aprel 2020-ci il tarixindən etibarən, “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin və “Buta Airways” aviaşirkətinin bütün beynəlxalq reyslərinə rəsmiləşdirilən aviabiletlər və həmçinin bütün əlavə xidmətlər üçün rəsmiləşdirilən EMD – lərin ləğvi və yenidən bronlaşdırılması üçün aşağıdakı tətbiq olunacaq qaydaları nəzərinizə çatdırırıq:

1. **10 Mart – 25 oktyabr 2020** tarixləri arasında yalnız yerinə yetirilməli olmuş və təxirə salınmış ənənəvi müntəzəm uçuşlara (xüsusi reyslər istisna olmaqla) rəsmiləşdirilən aviabiletlər və EMD-lər  üçün:

1.1. Ancaq uçuş tarixinin dəyişdirilməsinə icazə verilir:

- OW (bir istiqamətdə) rəsmiləşdirilən aviabiletlər, uçuş seqmentinin yerinə yetiriləcəyi tarixdən sonrakı 36 aylıq müddətdən gec olmayaraq istənilən tarixə dəyişdirilə bilər.
- Tamamilə istifadə olunmamış RT rəsmiləşdirilən aviabiletlər, ilk uçuş seqmentinin yerinə yetiriləcəyi tarixdən sonrakı 36 aylıq müddətdən gec olmayaraq istənilən tarixə dəyişdirilə bilər.
- Qismən istifadə olunmuş aviabiletlər, istifadə olunmamış uçuş seqmentinin yerinə yetiriləcəyi tarixdən sonrakı  36  aylıq müddətdən gec olmayaraq istənilən tarixə dəyişdirilə bilər.

1.2. Hər bir aviabilet cərimə tətbiq olunmadan 1 dəfə dəyişilə bilər (Rebooking)

1.3. Növbəti bütün dəyişikliklər, tarifin tətbiqi qaydalarına uyğun olaraq yerinə yetirilməlidir.

1.4. Marşrutun dəyişdirilməsi zamanı (rerouting) sərnişinin mövcud aviabileti üçün ödədiyi məbləğ çərçivəsində marşrutunun dəyişdirilməsinə icazə verilir.

1.5. Açıq tarixlə (Open date)  rəsmiləşdirilən aviabiletlər üçün istifadə müddəti 31 dekabr 2021-ci il  tarixinə qədər uzadılır.

1.6. Bütün əməliyyatlar zamanı ilk aviabiletin xidmət sinifi və tarif brendi  saxlanılır.

2. 10 mart 2020-ci il tarixinə qədər və 25 oktyabr 2020-ci ildən sonraki uçuş tarixlərinə rəsmiləşdirilən aviabiletlərin və EMD-lərin ləğvi və dəyişdirilməsi  (marşrutun dəyişdirilməsi daxil olmaqla) tarif qaydalarına uyğun olaraq həyata keçirilir.

3. Aviabiletlərin qaytarılmasına aviaşirkətin normal fəaliyyətini bərpa etdiyi vaxtdan 60 gün sonra icazə verilir.

4. Bu qaydalara əməl olunmaması hallarında ADM siyasəti əsasında müəyyənləşdirilən müvafiq cərimələr tətbiq olunacaq

“Azərbaycan Hava Yolları”

«01» mart 2018-ci il.

**Müqavilənin şərtlərinin pozulmasına görə cərimə sanksiyalarının siyahısı**
**(BSP və ARC vasitəsi ilə işləyən agentlər üçün ADM policy)**

| № | Qayda pozmaların növləri | Tədbiq olunan cərimə həcmləri |
|---|---|---|
| 1 | Tariflərin/güzəştlərin/əlavə bagajın ödənilməsinin tətbiq edilmə qaydalarına riayət edilməməsi, PNR ilə aviabiletdə təxsisetmə siniflərinin uyğunsuzluğu | Hər bir ETK/EMD/EBT/MCO-ya görə 25 EUR cərimə və dəymiş maddi zərərin ödənilməsi tətbiq olunur. |
| 2 | Yığımların düzgün hesablanmaması. | Hər daşıma sənədinə görə 25 EUR cərimə və Daşıyıcını qərarı əsasında dəymiş maddi zərərin qarşılanması. |
| 3 | Bir sərnişin üçün təxsis edilən fərdi PNR-da Ad vəya Soyadın dəyişdirilərk başqa bir sərnişinə verilməsi | Əğər PNR-da aviabilet rəsmiləşdirilməyibsə 3(üç) hərfə qədər dəyişiklik edilməsinə icazə verilir. (İlk və sonuncu hərf, vəya üç hərf adrıcıllıqla istisna olaraq) Əgər aviabilet rəsmiləşdirilibsə Ad/Soyad dəyişikliyi qadağandır, bu halda ancaq aviabilet tarif qaydaları əsasında qaytarılır və yeni bilet təxsis olunmaldıır. |
| 4 | Aviabiletin qaytarılması və dəyişdirilməsi qaydalarının düzgün tətbiq olunmaması (Cərimələrin səhv və ya düzgün tətbiq olunmaması) | Hər aviabiletə görə 25 EUR cərimə və Daşıyıcını qərarı əsasında dəymiş maddi zərərin qarşılanması. |
| 5 | PNR-da göstərilən ilə biletdə göstərilən tarif sinifinin eyni olmaması. | Hər daşıma sənədinə görə 25 EUR cərimə və Daşıyıcını qərarı əsasında dəymiş maddi zərərin qarşılanması. |
| 6 | Əsassız SD, CHD, İNF güzəştin qəsdən tətbiq edilməsi. | Hər bir aviabiletə - 5000 AVRO. |
| 7 | Aviabiletin müvafiq sətrində PNR nömrəsinin qeyd olunmaması, aviabiletin avtomatlaşmış maskasını sistemə daxil etməmiş aviabiletin rəsmiləşdirilməsi, aviabiletin avtomatlaşmış maskasında hər hansı bir dəyişikliyin edilməsi | hər bir PNR-ə görə 50 AVRO |

| | | |
|---|---|---|
| 8 | “Interline” müqaviləsi əsasında başqa aviaşirkətin heyata keçirdiyi uçuşlara düzgün olmayan tarif və sinifə görə aviabiletin rəsmiləşdirilməsi. | Hər daşıma sənədinə görə 25 EUR cərimə və Daşıyıcını qərarı əsasında dəymiş maddi zərərin qarşılanması. |
| 9 | Rəsmiləşdirilməmiş təxsisetmədə Time Limit opsiyasının olmaması. Müvafiq yerləri saxlamaq məqsədi ilə artıq yaradılmış və Time Limit opsiyası ilə avtomatik şəkildə təstiq olunmuş bronlarda əlavə və saxta seqmentlər daxil edərək, sonradan həmin seqmentlərin ləğv edib və bununla da müəyyən edilmiş vaxt məhdudiyyətin süni şəkildə uzadılması | hər bir PNR-ə görə 25 AVRO |
| 10 | Saxta təxsisetmələrin (TEST daxildir) yaradılması və ya sərnişinlərin saxta soyadlarının PNR-ə daxil edilməsi, PNR -ə saxta aviabiletlər nömrələrinin daxil edilməsi | hər bir PNR-ə görə - 50 AVRO |
| 11 | Üzürlü səbəblər (fors major) olmadan sistemdən götürülmüş yerlərin **30** dəqiqədən artıq, faktiki «PNR» yaratmayaraq ATES ekranında saxlanılması | hər bir belə fakta görə -50 AVRO |
| 11.1 | Əgər «PNR» yaratmadan yerlərin ekranda saxlanılması faktları eyni **«Agent»** tərəfindən bir ay ərzində 3(üç) dəfədən artıq təkrar olunarsa | hər saxlanınan yerə görə - 200 AVRO |
| 12 | “Azərbaycan Hava Yolları” QSC-nin Bakı- Nyu York-Bakı, Bakı-Pekin-Bakı, Bakı-London-Bakı, Rusiya Federasiyasının və Belorus Respubllikanın şəhərlərinə uçan reyslərinə PNR-də sərnişinin şəxsiyyətini təsdiq edən məlumatların olmaması/ düzgün daxil edilməməsi. | hər bir PNR-ə görə - 50 AVRO |
| 12.1 | “Azərbaycan Hava Yolları” QSC-nin digər reyslərdə isə | hər bir PNR-ə görə - 25 AVRO |
| 13 | Eyni PNR-da bir sərnişin üçün ikili (dublikat) və ya çoxsaylı segmentlərin yaradılaraq rəsmiləşdirilməsi (aviabiletin rəsmiləşdirilməsi zamanı əlavə bütün segmentlər dərhal çıxardılmalıdır.) | hər PNR-ə görə - 25 AVRO |
| 14 | Sərnişin uçuşdan imtina etdiyi halda təxsis edilmiş yerlərin ləğv edilməməsi (a/b qaytarılması və ya uçuş vaxtının təxirə salınması zamanı) | hər PNR-ə görə - 25 AVRO |
| 15 | Minimal calanma vaxtını pozmaqla aviadaşımalarin rəsmiləşdirməsi | hər bir PNR-ə görə - 25 AVRO |

| | | |
|---|---|---|
| 16 | ATES-nə girmə kodunun (referensiya, SI) başqa agentlərə (şəxslərə) ötürülməsi | hər belə fakta görə - 25 AVRO |
| 17 | **GDS** vasitəsi ilə PNR və ya aviabiletlər blanklarının başqa agentlərə (şəxslərə) ötürülməsi, **«Agent»-**in başqa satış nöqtələrində, onun subagenti olmayan ayrı bir təşkilat və ya **«Uyğunlug sertifikatı»** olmayan agenti tərəfindən yaradılmış təxsisetmə əsasında aviabiletin rəsmiləşdirməsi | hər PNR-ə görə 25 AVRO |
| 18 | "Azərbaycan Hava Yolları" QSC-nin reyslərinə açıq tarixlə rəsmiləşdirilmiş elektron aviabiletlərində uçuş tarixinin qeyd olunması, habelə, əlavə ödəniş tələb etməyən uçuş tarixinin dəyişməsi **"REVALİDATE"** əməliyyatı vasitəsilə keçirilir. | Bu qaydanı pozulduğuna görə, hər bir aviabiletə görə - 200 AVRO məbləqində cərimə tətbiq ediləcəkdir: |
| 18.1 | Əlavə cərimə ödənişi tələb edən uçuş vaxtının dəyişməsi **yalnız** yeni elektron aviabiletinin (**"Exchange-Reissue"**) rəsmiləşdirilməsi əməliyyatı vasitəsilə keçirilir, cərimə ödənişi (**"Change Penalty"** (**"CP"**)) aviabiletin özünə daxil edilməli və onun ümumi dəyərində əks etdirilməlidir. | Bu qaydanı pozulduğuna görə, hər bir aviabiletə görə - 200 AVRO məbləqində cərimə tətbiq ediləcəkdir: |
| 19 | Elektron aviabiletin marşrut qəbzinin (**Itinerary Receipt**) süni şəkildə dəyişirilməsi və ya saxtalaşdırılması | Hər bir fakta görə- 500 AVRO |
| 20 | **"Azərbaycan Hava Yolları" QSC**-nin arzuolunmaz sərnişin siyahısına daxil edilmiş şəxslərə aviabiletin rəsmiləşdirilməsi və ya uçuş tarixinin təsdiq edilməsinə görə | Hər bir sərnişinə - 500 AVRO |
| 21 | Təxsisetmədə sərnişinin əlaqə telefonunun daxil edilməməsinə görə | hər PNR-ə görə 10 AVRO<br>Bundan əlavə əgər sərnişin uçuş vaxtının təxirə salınması barədə vaxtında məlumatlandırılmayıbsa **«Agent»**, **«AZAL»** tərəfindən sərnişinə verilmiş təminat xərclərini ödəməlidir. |
| 22 | **"Azərbaycan Hava Yolları" QSC-nin** uçuşlarına elektron aviabiletlərin rəsmiləşdirilməsindən 3 (üç) saat ərzində və bu ləğv zamanı biletdə göstərilən uçuş vaxtına 3 saatdan az qalmayıbsa **"Void"** statusu ilə ləğv edilə bilər. "No Show" statuslu biletlərin "Void" statusla ləğvi qəti qadağandır. Belə hallarda aviabiletdən müvafiq tətbiq olunan cərimə tutularaq yalnız "**Refund**" olunmasına icazə verilir | Həmin aviabilet qaytarılma qaydalarına əsasən tətbiq olunan cərimə həcmində |
| 23 | **CHB**-ın bir ədəddən çox sayda ləğv edildikdə | iki blanka görə ümumi - 2 AVRO |

| | | |
|---|---|---|
| 23.1 | üç və ya artıq blanklara görə | hər blanka görə - 5 AVRO |
| 24 | Agent tərəfindən rəsmiləşdirilmiş biletdə PNR-dakı uçuş segmentlərinin dəyişdirilməsi zamanı təsdiq olunmuş tarif qaydalarına uyğun olmayan formada yenidən rəsmiləşdirilmə aparılmazsa | Hər daşıma sənədinə görə 25 EUR cərimə və Daşıyıcını qərarı əsasında dəymiş maddi zərərin qarşılanması. |
| 25 | Xüsusi xidmət tələbi olan sərnişinlərin istəklərinin Daşıyıcının dərc olunmuş qaydalarına uyğun olmayan şəkildə rəsmiləşdirilməsi.(EXST/CBBG və s.) | Hər daşıma sənədinə görə 25 EUR cərimə və Daşıyıcını qərarı əsasında dəymiş maddi zərərin qarşılanması. |
| 26 | Sərnişinin vəya onu təmsil etmək haqqına sahib şəxsin icazəsi olmadan, onun biletlənmiş PNR-da uçuş segmentlərinin ləğvi, biletin qaytarılması hallarında | Hər daşıma sənədinə görə 25 EUR cərimə və Daşıyıcını qərarı əsasında dəymiş maddi zərərin qarşılanması. |
| 27 | "HX / UC / UN / HL / NO" statuslarıyla aktiv olmayan segmentlərin ləğv olunmaması | Hər daşıma sənədinə görə 5 EUR cərimə və Daşıyıcını qərarı əsasında dəymiş maddi zərərin qarşılanması. |
| 28 | "Azərbaycan Hava Yolları" Aviaşirkətinin bütün reyslərində xüsusi kateqoriyalı qida sifarişi xidməti Aviaşirkət tərəfindən təsdiq edilən SSR əsasında, uçuşdan ən azı 20 saat əvvəl təqdim edilir. Uçuşa 20 saatdan az vaxt qaldıqda qida sifarişi xidməti təqdim edilmir.<br><br>Qida kateqoriyaları barədə məlumat əldə etmək üçün bu keçiddən istifadə edin: https://www.azal.az/az/service/catering | Hər bir pozuntu faktına görə 10 Avro məbləğində cərimə və daşıyıcıya və sərnişinə dəymiş maddi zərərin qarşılanması. |
| 29 | "Azərbaycan Hava Yolları" reyslərinə GDS-də hesablanılmış və tətbiq olunan daşıma dəyərindən aşağı qiymət üzrə təxsis edilməsi və satışı. | Cərimə – hər aviabiletə görə 25 avro. Aviaşirkət hər hansı və ya bütün satış kanallarında bu növ pozuntulara yol verən agentliyi (o cümlədən agentliyin subagentini) əvvəlcədən xəbərdar etmədən şirkətin satışını müəyyən müddətə məhdudlaşdıra bilər. |
| 30 | Transfer satış qaydalarının pozulması; Tətbiq edilən tarif səviyyəsinin azaldılması məqsədilə biletin saxta təyinat məntəqəsi üzrə təxsis edilməsi və satışı. | Hər daşıma sənədinə görə, istifadə edilmiş sahədə müvafiq xidmət sinfinə uyğun olaraq maksimal tarif miqdarında cərimə tətbiq olunur. |
| 31 | Ekonom sinifdə ASR vasitəsi ilə daha rahat yerlərin bronlaşdırılması zamanı EMD-nin rəsmiləşdirilməməsi.<br>Aviaşirkət tərəfindən təstiq olunmamış yer üçün /və ya ləğv edildikdən sonra EMD-nin rəsmiləşdirilməsi. | 25 Avro məbləğində cərimə və həmçinin daşıyıcı aviaşirkətə dəymiş zərərin əvəzi ödənilir. |

| | | |
|---|---|---|
| 32 | Biletin/EMD-nin qaytarılması/ləğv olunması yalnız alındığı yerdə həyata keçirilir.. | Aviaşirkətin rəsmi saytında /rəsmi satış ofisində yaxud səlahiyyətli agenti tərəfindən rəsmiləşdirilən aviabiletin rəsmiləşdirilmıyən agent tərəfindən Refund/Void faktı aşkar olunarsa - 100 avro məbləğində cərimə tətbiq olunacaq. Aviaşirkət bu növ pozuntulara yol verən agentliyi (o cümlədən agentliyin subagentini) hər hansı və ya bütün satış kanallarında əvvəlcədən xəbərdar etmədən şirkətin satışını müəyyən müddətə məhdudlaşdıra bilər |
| 33 | Agent tərəfindən olunan rezervasiya və ya bilet rəsmiləşdirilməsi zamanı Daşıyıcıya hər hansı bir zərərin toxunması<br><br>Bilet və müxtəlif sənədlərin düzgün və tam olmayan formada rəsmiləşdirilməsi | Hər daşıma sənədinə görə 25 EUR cərimə və Daşıyıcını qərarı əsasında dəymiş maddi zərərin qarşılanması. |
| 34 | “AZAL-Azərbaycan Hava Yolları” aviaşirkəti internet resurslar vasitəsilə aviabiletlərin satışı zamanı güzəştlərin təqdim edilməsini tamamilə qadağan edir (aviaşirkət tərəfindən təsdiq edilən güzəştlər istisna olmaqla) və reysin faktiki istismarçısı haqqında məlumatı agentlərin internet resurslarında (OTA) mütləq şəkildə əks etdirilməsini tələb edir.<br>Marşrut/qəbzdə göstərilən aviabiletin qiyməti (tarif + rüsum və yığımlar) daşımanın başladığı ölkənin ərazisində GDS sistemində hesablanan və dərc olunan yekun dəyərə, ödəniş əməliyyatlarının valyutası isə aviabiletdə qeyd olunan valyutaya uyğun olmalıdır. Agent tərəfindən həyata keçirilən yığım (mövcud olduğu halda) ayrıca göstərilməlidir. | Daşımanın yekun dəyərindən (tarif + rüsum və yığımlar) güzəştlərin (aviaşirkət tərəfindən təsdiq edilən güzəştlər istisna olmaqla) təqdim edilməsi faktları və/və ya digər pozuntular (o cümlədən meta-axtarış resurslarında daşımanın yekun dəyəri barədə səhv məlumatın göstərilməsi) aşkar olunduqda "Azərbaycan Hava Yolları" QSC daşınmanı rəsmiləşdirən agentliyin sistemini aviaşirkətin resurslarından birtərəfli qaydada ayırmaq hüququnu özündə saxlayır. |
| 35 | Azərbaycan Hava Yolları" QSC “Azərbaycan Hava Yolları" və "Buta Airways" aviaşirkətlərinin uçuşlarına aviadaşımaların təxsis edilməsi və satışı zamanı agentlərin internet resurslarında (OTA) reysin faktiki daşıyıcısı haqqında məlumatın mütləq şəkildə əks etdirilməsinə dair tələb daxil edir. Faktiki daşıyıcı barədə məlumat reys axtarışlarının nəticələri əks olunan səhifədə və cədvəl ekranında müştərinin əlavə hərəkət etmədən aydın şəkildə görə biləcəyi formada qeyd olunmalıdır. Həmçinin faktiki daşıyıcı barədə məlumat meta-axtarış sistemlərinə də düzgün şəkildə ötürülməlidir. | Uçuşu həyata keçirən aviaşirkət yanlış göstərildikdə "Azərbaycan Hava Yolları" QSC daşınmanı rəsmiləşdirən agentliyin sistemini aviaşirkətin resurslarından birtərəfli qaydada ayırmaq hüququnu özündə saxlayır. |

| | | |
|---|---|---|
| 36 | «AZAL-Miles» proqramı üzrə mükafatlandırıcı aviabiletlərin rəsmiləşdirilməsindən sonra iştirakçıya məxsus olan kart nömrəsi 30 dəqiqə ərzində təxsisetməyə daxil edilməlidir. | Hər sərnişinə görə - 25 Avro məbləğində cərimə |
| 37 | Daşıyıcının gəlirinə zərər vuracaq şəkildə düzgün olmayan tarif və yığımların hesablanması və ya GDS səhvi əsasında düzgün olmayan bilet rəsmiləşdirilməsi hallarında. | Daşıyıcını qərarı əsasında dəymiş maddi zərərin qarşılanması. |
| 38 | Sərnişin aviadaşımalarının satışı zamanı «Subagent»in hərəkəti, qərarı və ya hərəkətsizliyi nəticəsində «Subagent» tərəfindən Aviaşirkətə, sərnişinə və ya «Agent»ə müvafiq sənədlərlə təsdiqlənmiş maddi ziyan vurulduqda | yuxarıda göstərilmiş cərimələrindən əlavə olaraq vurulmuş maddi ziyanın məbləği 100% həcmdə «Agent» tərəfindən «AZAL»-a ödənilir |

Əlavə:

1. **11.1**. bəndinə əlavə olaraq- əgər «PNR» yaratmadan yerlərin ekranda saxlanılması faktları mütəmadi olaraq yol verilərsə **«Subagent»**in satışı **«Agent»** tərəfindən müəyyən müddətə məhdudlaşdırıla bilər.
2. **17** bəndinə əlavə olaraq **-** Əgər **GDS** vasitəsi ilə PNR və ya aviabiletlər blanklarının başqa agentlərə (şəxslərə) ötürülməsi, **«Agent»-**in başqa satış nöqtələrində, onun subagenti olmayan ayrı bir təşkilat və ya **«Uyğunlug sertifikatı»** olmayan agenti tərəfindən yaradılmış təxsisetmə əsasında aviabiletin rəsmiləşdirməsi təkrarən aşkar olunduqda, hər PNR-ə görə – 25 AVRO cərimə tətbiq olunur , və **«Agent»-in satışı "AZAL"** tərəfindən birtərəfli qaydada xitam olunacaq
3. **23 bəndinə əlavə olaraq -** Əgər elektron biletlərin ləğv edilməsi eyni subagent tərəfindən yerlərin saxlamaq məqsədi ilə sistematik şəkildə baş verərsə **«Agentin»-**in satışı "AZAL" tərəfindən müəyyən müddətə məhdudlaşdırıla bilər

Diqqət:

1. Yuxarıda göstərilən qayda pozuntuları aşkar olunarsa, **«AZAL»** qayda pozuntusunun növünü və cərimə məbləğini göstərməklə **«Agent»-ə** rəsmi şəkildə yazılı məlumat təqdim edir.

2. Tətbiq olunan ADM üçün BSP agentləri tərəfindən və sadəcə BSPlink üzərindən "ADM Dispute" funksiyası vasitəsiylə IATA-nın dərc olunmuş qaydaları çərçivəsində etiraz etmək hüququna malikdirlər (hər bir cəriməyə yalnız bir dəfə etiraz oluna biler). Etiraz olunan zaman bütün müvafiq köməkçi sənədlərin və ya məlumatlar "ADM Dispute"-da əlavə olunduqdan sonra, Daşıyıcı tərəfindən IATA-nın qaydaları daxilində olunan etirazları nəzərə alaraq, təkrar yoxlanacaqlar və müvafiq qərar qəbul ediləcəkdir.

3. Əğər Agentin hesabat valyutasının məzənnəsi ilə tətbiq olunmuş cərimənin valyuta məzənnəsi eyni deyilsə, ödəniş rezervasiya sistemində ADM-in rəsmiləşdirildiyi günə görə dərc olunmuş valyuta məzənnəsinin ekvivalenti ilə və ya (Azərbaycandakı agentliklər üçün) ödəniş gününə olan Azərbaycan Respublikası Mərkəzi Bankının valyuta məzənnəsi əsas götürülərək aparılır.
4. Rezervasiya sisteminə görə irəli gələn hər hansı bir qayda pozuntusu halında tətbiq olunan ADM də, Agent tərəfindən tam şəkildə ödənilməlidir.

5. Istisna hallara görə biletin qaytarılması prosesi ancaq üçün BSPlink üzərindən müraciət edərək həyata keçirilməlidir

6. ADM aşağıdakı şərtlər istisna olmaqla biletin rəsmiləşdirildiyi gündən bir il ərzində aparıla bilər:

- Diğər aviaşirkətlər üçün: Əğər eyni aviabiletdə digər avaişirkətlərin bileti də rəsmiləşdirilibsə, bu aviaşirkətlərin ADM tətbiq etdikləri gündən bir il ərzində tətbiq oluna bilər,
- Əgər aviabilet geri qaytarılıbsa, geri qaytarılma günündən 1 il ərzində,
- Aviabilet rəsmiləşdirilməsi aparılmamış rezervasiyalar üçün ilk uçuş seqmentinin günündən 1 il ərzində.
- BSP agentləri üçün, ADM-in tətbiqi üçün son gün IATA-nın qaydaların tətbiqi müddəalarında və nizamnaməsində müəyyən olunub.